# Parisdə "Natəvan" məktəbində Novruz bayramı qeyd edilib



**Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının təşkilatçılığı, Azərbaycan səfirliyi və Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Parisdə fəaliyyət göstərən "Natəvan" məktəbinin şagirdləri ilə xalqımızın milli adət-ənənələrini özündə birləşdirən qədim bayramımız Novruz qeyd olunub.**

Tədbirdə "Natəvan" məktəbinin müəllim kollektivi, şagirdləri və onların valideynləri, eləcə də səfirliyimizin diplomatları iştirak ediblər. Məktəbin müəllim kollektivi və milli geyimdə olan şagirdləri səfirliyimizin Mədəniyyət Mərkəzində əsl bayram əhvali-ruhiyyəsi yaradıblar.

Tədbirdə Fransadakı səfirimiz Leyla Abdullayeva çıxış edərək məktəbin müəllim kollektivini, şagirdləri, onların valideynlərini Novruz bayramı münasibətilə təbrik edib, onlara əmin-amanlıq, firavan həyat arzulayıb. Xalqımızın əsrlər boyu qoruyub saxladığı və nəsildən-nəslə ötürdüyü əziz Novruz bayramının təşkilinə görə təşəkkür edib. Uşaqların milli geyimlərdə olmasını yüksək qiymətləndirən səfir dünyanın hansı ölkəsində olmasına baxmayaraq, adət-ənənələrimizin gələcək nəsillərə ötürülməsinin vacibliyini qeyd edib.

Azərbaycan.- 2024.- 19 mart, № 61.- S.15.